**Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu PHŞ İdarə Heyətinin “ 23 ” “ noyabr ” 2024-cü il tarixli Q/13 №-li QƏRARI ilə təsdiq edilmişdir.**

# İDARƏETMƏ SİSTEMLƏRİ ÜZRƏ SERTİFİKATLAŞDIRMA XİDMƏTİNİN QİYMƏT TƏLİMATI

*« Bu sənəd AQTİ mülkiyyətidir və hüquqları qanunun mülki müddəalarına uyğun olaraq qorunur »*

## 1. TƏLİMATIN MƏQSƏDİ

Bu təlimatın məqsədi Azərbaycan Qida Təhlükəsizlyi İnstitutu publik hüquqi şəxs (bundan sonra - İnstitut) tərəfindən həyata keçirilən idarəetmə sistemləri sertifikatlaşdırma fəaliyyəti üzrə xidmət haqlarının hesablanma mexanizmini tənzimləməkdir.

## 2. ƏLAQƏLİ SƏNƏDLƏR

- ISO 9001:2015 Keyfiyyəti idarəetmə sistemləri. Tələblər
- ISO 9000:2015 Keyfiyyət idarəetmə sistemləri. Əsas müddəalar və lüğət
- ISO/IEC 17021-1:2015 Uyğunluğun qiymətləndirilməsi. İdarəetmə sistemləri üzrə audit və sertifikatlaşdırma xidmətlərini göstərən orqanlara dair tələblər – 1-ci hissə: Tələblər
- ISO/IEC 17000:2020 Uyğunluğun qiymətləndirilməsi. Lüğət və ümumi prinsiplər
- AQTİ-SS-T-001 Audit vaxtının təyini və planlanması təlimatı

## 3. TERMİNLƏR

- **Adam/gün** – Sertifikatlaşdırma xidməti zamanı 1 auditor üçün nəzərdə tutulmuş 1 günlük xidmət haqqı;

- **Ön dəyərləndirmə, müraciət və sənəd təhlili qiyməti** – müraciət edən tərəfindən təqdim edilən əl kitabı, prosedur və s. sənədlərin tələb edilən standarta əsasən təhlili üçün alınan xidmət haqqı;

- **Audit (qiymətləndirmə) qiyməti** – hazırlanan audit planına görə müəssisədə həyata keçirilən ilkin, illik, təkrar, plandankənar qiymətləndirmələrin xidmət haqqı. Bu qiymət müəssəsinin personal sayı, sertifikasiya sahəsinə görə təhkim ediləcək auditorların sayı və audit müddəti əsasında müəyyənləşdirilir.

- **İllik sertifikat istifadə qiyməti** – sertifikatdan istifadə üçün hər il ödəniləcək xdmət haqqı. İllik qiymətləndirmə zamanı sertifikatlaşdırmanın dayandırılması kimi hallarda dayandırılma müddətini əhatə edən dövr üçün bu məbləğ hesablanılmır.

- **Plandankənar audit (qiymətləndirmə)** – sertifikatlaşdırılmış müəssisə barədə daxil olmuş şikayətlərin və ya müəssisədə baş vermiş dəyişikliklərin araşdırılması, yaxud sertifikatlaşdırılması dayandırılmış müəssisədə müraciət əsasında vəziyyətin dəyişib-dəyişmədiyini müəyyənləşdirmək məqsədilə növbədənkənar qiymətləndirmələrin həyata keçirilmə prosesi.

## 4. CAVABDEHLƏR

**4.1** Sertifikasiya şöbəsinin müdiri
**4.2** Keyfiyyətə nəzarət üzrə mütəxəssis

## 5. TƏLİMATIN TƏSVİRİ

**5.1.** İdarəetmə sistemləri üzrə sertifikatlaşdırma xidmətinin qiymətinin müəyyənləşdirilməsində əsas rol oynayan adam/gün qiyməti İnstitutun Sertifikasiya şöbəsinin müdiri tərəfindən müraciət edən müəssisəsinin personal sayı nəzərə alınmaqla Audit vaxtının təyini və planlanması təlimatına (AQTİ-SS-T-001) əsasən hesablanır.

**5.2.** Sertifikatlaşdırma zamanı Texniki ekspertin auditdə (qiymətləndirmə) iştirak zəruriliyi ən az 1 (bir) gündür. Bu hal audit (qiymətləndirmə) müddətinə 1 adam/1 gün olaraq təsir edir. Lakin sertifikatlaşdırılacaq idarəetmə sistemlərinin müxtəlifliyi və ya proseslər kimi bəzi parametrlərdən aslı olaraq Texniki ekspertin sertifikatlaşdırma prosesində iştirakının zəruri olduğu hallarda Texniki ekspert sertifikatlaşdırma prosesində 1 gündən artıq müddətdə iştirak edə bilər.

**5.3.** İlkin, illik, təkrar, plandankənar qiymətləndirimələr zamanı yol, qonaqlama xərcləri müraciət edən müəssisə tərəfindən qarşılanır (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli qərarı ilə müəyyən edilmiş qaydada ezamiyyə xərcləri). Qiymətləndirmənin müəyyən mərhələsində sertifikatlaşdırmadan imtina edən müştəri o müddətə qədər həyata keçirilən xidmətin haqqını ödəməlidir.

**5.4.** Sertifikatlaşdırma fəaliyyətləri zamanı tələb edilən xidmət haqları idarəetmə sistemləri üzrə sertifikatlaşdırma xidmət haqqı *Cədvəlində* qeyd olunmuşdur. Sənədlərin yoxlanılması və təhlili, qiymətləndirmənin birinci mərhələsində xidmət haqqı idarəetmə sistemləri üzrə sertifikatlaşdırma auditləri başlamazdan öncə ödənilməlidir.

*Cədvəl.* **İdarəetmə sistemləri üzrə sertifikatlaşdırma xidmətinin qiymət cədvəli**

| **1** | **2** | **3** | **4** |
|---|---|---|---|
| **№** | **Xidmətin adı** | **Ölçü vahidi** | **Məbləğ (ƏDV daxil) (manat)** |
| 1 | Sənədlərin yoxlanılması və təhlili | 1 adam /1 gün | 295.00 |
| 2 | Audit (qiymətləndirmə) | | |
| 2.1. | ilkin qiymətləndirmə | 1 adam /1 gün | 708.00 |
| 2.2. | illik qiymətləndirmə | 1 adam /1 gün | 590.00 |
| 2.3. | təkrar qiymətləndirmə | 1 adam /1 gün | 590.00 |
| 3.1. | İllik sertifikatdan istifadə | 1 il | 295.00 |
| 4. | Sertifikatın yenidən hazırlanması (itməsi, ünvan və ya akkreditasiya sahəsində baş vermiş dəyişiklik) (qiymətləndirmənin tələb olunmadığı hallarda) | 1 ədəd | 200.00 |
| 5 | Sertifikatın fərqli dildə (ingilis dili istisna olmaqla) hazırlanması | 1 ədəd | 200.00 |

**Qeyd:**

- Qiymətləndirmə (audit) zamanı məhsullardan götürülmüş nümunələrin laborator sınaq analizlərinin qiymətləri Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2023-cü il 07 mart

tarixli 72 nömrəli Qərarı ilə təsdiq edilmiş “Qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların nümunələrinin sınaq laboratoriyalarında tədqiqinə (sınağına) görə xidmət haqqının məbləği əsasında müəyyən edillmiş tariflərə uyğun olaraq hesablanır və müştəri tərəfindən ödənilir.

- Müəssisədə plandankənar audit (qiymətləndirmə) həyata keçirildiyi halda xidmət haqqı Cədvəlin 2-ci bəndinə əsasən hesablanaraq müştəri tərəfindən ödənilir.
- İlkin və təkrar qiymətləndirmə zamanı təqdim ediləcək sertifikatlar üçün ödəniş tələb edilmir.

## DƏYİŞİKLİKLƏRİN QEYDİYYATI

| **SƏNƏDİN ADI** | İDARƏETMƏ SİSTEMLƏRİ ÜZRƏ SERTİFİKATLAŞDIRMA XİDMƏTİNİN QİYMƏT TƏLİMATI | | | | |
|---|---|---|---|---|---|
| **SƏNƏD №** | AQTİ-SS-T-006 | | | | |
| **Tarix** | **Dəyişiklik №** | **Səhifə №** | **Dəyişikliyin təsviri** | **İcra etdi** | **Təsdiq etdi** |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |

# TANIŞLIQ VƏRƏQİ

| S.s. | Vəzifə | S.A.A. | İmza | Tarix | Qeyd |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |